**Müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı şanlı Zəfər günü ərəfəsində Azərbaycan ədliyyəsi müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin qərarı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı və 102 illiyini qeyd etməyə hazırlaşır.**

# 102 yaşlı Azərbaycan Ədliyyəsinin builki peşə bayramı əvvəlkilərdən daha möhtəşəmdir - Ədliyyə leytenantı Azər Əsgərov yazır...

Bir əsr inkişaf yolu keçmiş Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamışdır. 1918-ci ilin noyabr ayının 22-də isə Ədliyyə Nazirliyinin funksiyalarını, fəaliyyət istiqamətlərini və səlahiyyətlərini müəyyən edən mühüm akt-nazirliyin Əsasnaməsi təsdiq olunmuşdur.

Ədliyyə Nazirliyinin həm şərəfli, həm də çox çətin və mürəkkəb dövrləri olmuşdur. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Ədliyyə sistemi rejimin mahiyyətinə uyğun ciddi təsirlərə məruz qalmışdır. Bundan irəli gələrək, ədliyyə orqanlarının dəfələrlə ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin sabit struktura çevrilməsinə maneçilik törətmişdir.

Azərbaycan ədliyyəsinin yenidən və əsaslı surətdə formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş məhkəmə-hüquq islahatı nəticəsində Azərbaycan ədliyyəsinin gələcək inkişafı üçün əlverişli şərait yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı yolunda yeni nailiyyətlər əldə edilmiş, həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətin idarə olunmasında yeri və rolu daha da artmışdır. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilməklə Ədliyyə Nazirliyinə hüquq-mühafizə orqanı statusunun verilməsi Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinin genişlənməsinin, dövlətin hüquq siyasətini həyata keçirən orqan kimi cəmiyyətdə ciddi nüfuza malik olmasının bariz nümunəsidir. Prezident İlham Əliyevin 2009-cu il 6 fevral tarixli sərəncamına əsasən isə Azərbaycanda ədliyyənin inkişafına dair Dövlət Proqramı təsdiq olunmuş və icra edilməyə başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" ölkəmizdə ədliyyə sisteminin daha da təkmilləşməsində, işinin müasir tələblərə uyğun qurulmasında, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən orqanların fəaliyyətindəki səmərəliliyin artırılmasında önəmli rol oynamışdır.



Fəaliyyətinin ilk günlərindən ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsinə xüsusi diqqət yetirən Prezident İlham Əliyevin 2017-ci il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ölkəmizin inkişafı və əldə edilən hərtərəfli uğurlar fonunda cəza siyasətinə, cinayət qanunvericiliyinə, məhkumların hüquqlarının təminatı məsələlərinə baxışın yenilənməsi, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi baxımından proqram xarakterli sənəddir. Dövlətimizin başçısının bu Sərəncamından irəli gələn tədbirlərin reallaşdırılması istiqamətində tədbirlər ən yüksək səviyyədə ardıcıl şəkildə davam etdirilir. Aparılan uğurlu siyasət nəticəsində Ədliyyə Nazirliyinin beynəlxalq əlaqələri də gündən-günə genişlənir. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafının təmin edilməsi, innovativ texnologiyaların tətbiqi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, bu sahədə infrastrukturun müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür ki, bu da 102 yaşını qeyd edən Azərbaycan ədliyyəsinin qarşısına qoyulan vəzifələrin daha səmərəli yerinə yetirilməsinə imkan yaradır.

Heç şübhəsiz ki, ədliyyə işçilərinin qeyd etdiyi builki peşə bayramı əvvəlkilərdən daha möhtəşəm, daha əlamətdardır. Çünki bayram bayrama, sevinc sevincə qarışıb. Vətən müharibəsində müzəffər Ordumuzun qazandığı şanlı qələbə xəbərini aldığımız andan sevinc göz yaşlarımız sel olub, ürəyimiz dağa dönüb. Peşə bayramı ərəfəsində əvvəlcə Şuşanın azad olunması, daha sonra isə müharibədə qazandığımız böyük Zəfər xəbəri bizim hər birimizə bir saha sübut etdi ki, güc birlikdədir. İllərdir həsrətində olduğumuz torpaqların baş tacı olan Şuşaya igid əsgərlərimiz qanı bahasına, xalqımızın birliyi, dövlət başçımızın əzmkarlığı sayəsində qovuşduq. Ali Baş Komandanın da dediyi kimi, bu savaş haqq savaşı idi, biz haqq uğrunda mübarizə aparırdıq. Biz haqq yolunda haqqımız olanı aldıq. Şuşanın azad olunması 28 ildir göynəyən yaralarımıza məlhəm oldu. Şuşa dağlarının başı üzərindəki qara buludlar çəkildi. Artıq Şuşa minarələrində azan səsi eşidiləcək, xarıbülbülün ətrini duyacaq, Xan Qızının çəkdirdiyi bulağın şırıltısını eşidə biləcəyik. Şuşa bizim haqq uğrunda apardığımız savaşın zəfər nöqtəsi idi. Cəbrayılda, Zəngilanda, Füzulidə, Qubadlıda üçrəngli bayrağımızı dalğalandıran igidlərimiz şanlı bayrağımızı Şuşa qalasında da yüksəltdilər. Şuşa xəbərinin sevincini yaşarkən gecə cənab Prezidentimiz xalqa müraciət edərək böyük Zəfər qazandığımızı elan etdi. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur", - deyən Ali Baş Komandan hər bir azərbaycanlıya həyatının ən xoş müjdəsini verdi. Şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, müdafiə qüdrətimiz sayəsində həm döyüş meydanında, həm də danışıqlar masası arxasında biz istədiyimizə nail olduq. Rusiya-Azərbaycan Prezidentləri, Ermənistanın baş naziri tərəfindən doqquz bənddən ibarət üçtərəfli Bəyanatın imzalanması ölkəmizin tam və qəti qələbəsinin rəsmi təsdiqi, işğalçı dövlətin hərbi kapitulyasiyasıdır. "Biz imzamıza hörmətlə yanaşırıq. Qarşı tərəf də dayanmalıdır. Çünki dayanmasa, biz də dayanmayacağıq"söyləyən Ali Baş Komandan sona qədər gedəcəyini, heç bir qüvvənin Azərbaycan Ordusunun qarşısını ala bilməyəcəyini diqqətə çatdırır. Bəyanatda qeyd olunan, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyin artırılması məqsədilə yaradılacaq sülhməramlı mərkəzdə təmsil olunacaq Rusiya və Türkiyə hərbçilərinin fəaliyyətinin səmərə verəcəyinə inamını ifadə edən dövlət başçımız əminliklə ifadə edir ki, gələcəkdə bu əməkdaşlıq formatı daha çoxşaxəli ola bilər.

Bəyanatda Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirməsi ilə bağlı bəndin salınması tarixi əhəmiyyətə malikdir. Ermənistan tərəfindən blokadada saxlanılan Naxçıvana birbaşa nəqliyyatın bərpa olunması qardaş Türkiyə və başqa dost dövlətlərlə əlaqələri daha da möhkəmləndirəcək, tərəfdaş ölkələrin iqtisadi inkişafına yeni imkanlar yaradacaq. Ən başlıcası isə bölgədə sabitlik, əmin-amanlıq təmin olunacaq. Bu əlaqələrin yaranması bütün layihələrdən kənarda qalan Ermənistana daha bir zərbə olacaq.

"Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri. Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, "dedilər ki, yox, bu, "müstəqil" dövlətdir". Bunlar uzun illərdir müstəqil dövlət kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var" söyləyən Prezident İlham Əliyev sınaqlardan çıxan Azərbaycan xalqının gücünü, müstəqilliyimizin əbədiliyini uzaqgörən siyasəti ilə təsdiqləyir. Bu istəyimizə xalqımızın birliyi, ordumuzun qüdrəti ilə nail olduq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Ali Baş Komandanın bu müjdəsindən sonra sevinc-sevincə qarışdı. Böyükdən-kiçiyə hər kəs bu möhtəşəm Qələbəni qeyd etmək üçün küçələrə axışdı. Şəhər üçrəngli bayrağa büründü. "Qarabağ Azərbaycandır", "Qarabağ bizimdir", "Ordumuza eşq olsun", "Şəhidlər ölməz, Vətən bölünməz" şüarlarını eşitmək necə də möhtəşəm bir duyğu imiş. 30 ilə yaxındır çəkdiyimiz bütün əzablar, ağrı-acılar geridə qaldı. 44 gün davam edən Vətən müharibəsi, İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tam və qəti qələbəsi ilə başa çatdı. Əsgər və zabitlərimiz cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, sərkərdəliyi altında sözün əsl mənasında tarix yazdılar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ordumuzun, xalqımızın birliyi, haqq işimizin nəticəsi qələbəmizdir! Mənfur düşmənə verdiyimiz tarixi dərs qürurvericidir. Bu qəhrəmanlıq tarixidir. Bu Azərbaycanın zəfər salnaməsidir! Oğullarımız yeni tarixə imza ataraq işğalda olan torpaqlarımızın hər qarışını azad etdi, xalqımıza Qələbə sevincini yaşatdı. Sənə Qələbə yaraşır, Azərbaycan! Zəfərimiz mübarək, müzəffər Ordu! Qürur günümüz mübarək, Azərbaycan xalqı!

***Azər ƏSGƏROV***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətin inspektoru***
***ədliyyə leytenantı***